| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 16.12.2016 |
| QEYDİYYAT NÖMRƏSİ | 461-VQ |
| ADI | Nağdsız hesablaşmalar haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 25-12-2016, Nəşr nömrəsi: 287), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2016, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 2053) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 25.12.2016 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 090.010.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 12201612160461 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 27.12.2016 |

## Nağdsız hesablaşmalar haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası ərazisində aparılan nağdsız hesablaşmaların hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### Ümumi müddəalar

**M a d d ə 1. Nağdsız hesablaşmaların məqsədi**

Bu Qanunun məqsədi Azərbaycan Respublikası ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirməkdir.

**M a d d ə 2. Nağdsız hesablaşmalar haqqında qanunvericilik**

*2.1.* Nağdsız hesablaşmalar haqqında qanunvericilik bu Qanundan, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, Azərbaycan Respublikasının Vergi Məcəlləsindən və onlara uyğun qəbul edilmiş normativ hüquqi aktlardan ibarətdir.

*2.2. Nağdsız hesablaşmalar haqqında qanunvericilik Ələt azad iqtisadi zonasına şamil edilmir.* [1]

### 2-ci fəsil
### Nağdsız hesablaşmaların tənzimlənməsi

**M a d d ə 3. Nağdsız qaydada həyata keçirilən hesablaşmalar**

3.1. Nağdsız hesablaşma dedikdə, aşağıdakılar nəzərdə tutulur:

3.1.1. bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri (mobil telefon aparatları, kompüter və digər avadanlıq) ilə həyata keçirilən hesablaşmalar;

3.1.2. ödəniş terminalları ilə həyata keçirilən hesablaşmalar;

3.1.3. birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar.

3.2. Hər iki tərəf vergi ödəyicisi olan şəxs arasında hesablaşmalar üzrə nağdsız ödəniş yalnız bu Qanunun 3.1.1-ci maddəsində müəyyən olunmuş formada həyata keçirilə bilər.

3.3. Bu Qanunun 3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ~~ticarət və (və ya)~~ ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir. [2]

*3.3-1. Bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mülki hüquqi xarakterli müqavilələr əsasında mövsümi işlərə cəlb edilən fiziki şəxslər üzrə gündəlik hər bir belə fiziki şəxs üçün nağd qaydada ödənilə bilən məbləğin yuxarı həddi iyirmi manat məbləğində müəyyən edilir və həmin məbləğ bu Qanunun 3.3-cü maddəsi ilə müəyyən edilmiş nağd əməliyyat həddinə daxil edilmir.*[3]

3.4. Bu Qanunun 3.3-cü maddəsinin müddəalarından asılı olmayaraq aşağıdakı hesablaşmalar yalnız nağdsız qaydada həyata keçirilir:

3.4.1. vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi;

3.4.2. "Sığorta fəaliyyəti haqqında" və "İcbari *sığortalar* haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər;[4]

3.4.3. dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar;

3.4.4. əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları (o cümlədən, işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən, birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar;

3.4.5. stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi;

3.4.6. faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması;

3.4.7. dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi);

3.4.8. təhsil haqlarının ödənilməsi;

3.4.9. turagentlərə ödəmələr*;*

*3.4.10. ixtisaslaşdırılmış qaydada, o cümlədən komisyon və ticarət təşkilatları vasitəsilə avtomobil satışı üzrə ödənişlər;*

*3.4.11. pərakəndə satış qaydasında təqdim edilən malların (avtomobillər istisna olmaqla) satışı üzrə bir əməliyyat*

*çərçivəsində dörd min manatdan artıq olan ödənişlər;*

*3.4.12. tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlər;*

*3.4.13. "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən münasibətlər üzrə müəyyən edilmiş ümumi məbləği üç min manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları).*[5]

3.5. Vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən aşağıdakı mallar nağd qaydada satın alına bilər:

3.5.1. kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının qəbulu;

3.5.2. əlvan və qara metal qırıntılarının qəbulu;

3.5.3. utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların qəbulu;

3.5.4. utilizasiya məqsədləri üçün işlənmiş şinlərin qəbulu*;*

*3.5.5. xam dərinin tədarükü (alışı).*[6]

*3.6. Bu Qanunun 3.4.4-cü maddəsində nəzərdə tutulmuş hesablaşmalar əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektlərinə şamil edilmir.*[7]

**M a d d ə 4. Qanunun pozulmasına görə məsuliyyət**

4.1. Bu Qanunun tələblərinə riayət edilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

4.2. Bu Qanunun tələblərinin pozulması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**M a d d ə 5. Qanunun qüvvəyə minməsi**

Bu Qanunun 3.3-cü maddəsi ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan vergi ödəyicilərinə münasibətdə 2017-ci il yanvarın 1-dən, digər vergi ödəyicilərinə münasibətdə isə 2017-ci il aprelin 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 dekabr 2016-cı il
461-VQ

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 13 iyun 2017-ci il tarixli 729-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 iyul 2017-ci il, 155 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1288**)
2. 28 dekabr 2018-ci il tarixli **1411-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, 25, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 28**)
3. 1 may 2020-ci il tarixli **77-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 may 2020-ci il, 95 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 527**)
4. 6 oktyabr 2020-ci il tarixli **183-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 24 noyabr 2020-ci il, 245 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1333**)
5. 3 dekabr 2021-ci il tarixli **411-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 30 dekabr 2021-ci il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1310**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 28 dekabr 2018-ci il tarixli **1411-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 fevral 2019-cu il, 25 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 28**) ilə 2-ci maddənin mətni 2.1-ci maddə hesab edilmişdir və yeni məzmunda 2.2-ci maddə əlavə edilmişdir.

[2] 6 oktyabr 2020-ci il tarixli **183-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 24 noyabr 2020-ci il, 245 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1333**) ilə 3.3-cü maddədən "**ticarət və (və ya)**" sözləri çıxarılmışdır.

[3] 1 may 2020-ci il tarixli **77-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 may 2020-ci il, 95 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 527**) ilə yeni məzmunda 3.3-1-ci maddə əlavə edilmişdir.

[4] 13 iyun 2017-ci il tarixli 729-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 iyul 2017-ci il, 155 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1288**) ilə 3.4.2-ci maddədə "**sığorta**" sözü "**sığortalar**" sözü ilə əvəz edilmişdir.

[5] 3 dekabr 2021-ci il tarixli **411-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 30 dekabr 2021-ci il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1310**) ilə 3.4.9-cu maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuşdur və yeni məzmunda 3.4.10-3.4.13-cü maddələr əlavə edilmişdir.

[6] 1 may 2020-ci il tarixli **77-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 16 may 2020-ci il, 95 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 5, maddə 527**) ilə 3.5.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 3.5.5-ci maddə əlavə edilmişdir.

[7] 13 iyun 2017-ci il tarixli 729-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 21 iyul 2017-ci il, 155 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, maddə 1288**) ilə yeni məzmunda 3.6-cı maddə əlavə edilmişdir.